# Qəbələdə sosial-iqtisadi inkişafın uğurları

## Rayon icra hakimiyyətində geniş müşavirə keçirilmişdir

Oktyabr ayının 20-də rayon icra hakimiyyətinin iclas salonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası ilə əlaqədar həmin dövrdə Qəbələ rayonunda görülmüş işlər və qarşıda duran vəzifələrə dair müşavirə keçirilmişdir.







Müşavirəyə rayon icra hakimiyyəti başçısı yanında Şuranın üzvləri, rayon inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, sahibkarlar, idarə və müəssisə rəhbərləri dəvət olunmuşdu.

Müşavirəni rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev açmışdır. Sonra hörmətli başçı 2015-ci ilin 9 ayı ərzində Qəbələ rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə geniş məruzə etmişdir **(məruzə qəzetdə dərc olunur).**

Məruzə ətrafında Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Oqtay Hacıyev, rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov çıxış etmiş və rəhbərlik etdikləri təşkilatlar üzrə görülən işlərdən danışmışlar.

Müşavirə iştirakçıları tərəfindən müzakirə olunan məsələ ilə əlaqədar müvafiq qərar qəbul olunmuşdur.

* * *

Məlumat verdiyimiz kimi Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 22 iyun 2015-ci il tarixli sərəncamı ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Arif Mustafa oğlu Allahverdiyev "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Oktyabrın 20-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev medalı Arif Allahverdiyevə təqdim etmişdir. Təbrik edirik.

**Oqtay MƏMMƏDOV.**

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!**

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda möhtərəm Prezident İlham Əliyev bu il dünyada davam edən böhrana, neftin qiymətinin kəskin düşməsinə, ölkəmizə qarşı əsassız təzyiqlərə və bəzi hallarda təxribatlara baxmayaraq, ötən 9 ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirmişdir. Cənab Prezident qeyd etmişdir ki, bu dövrdə iqtisadiyyat 3,7 faiz, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10 faizdən çox, kənd təsərrüfatı istehsalı 6,7 faiz artmışdır. İlin 9 ayında inflyasiyanın 3,7 faiz təşkil etdiyi, əhalinin pul gəlirlərinin 5,8 faiz artdığı, ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulduğu vurğulanmışdır.

Dövlətimizin başçısı sosial sahədə icra olunan layihələrdən danışarkən demişdir ki, ötən dövrdə ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı xeyli iş görüldüyünü söyləyən cənab Prezident xüsusilə ünvanlı sosial yardımların verilməsində şəffaflığın təmin edildiyini vurğulayaraq indi 500 min insanın, yəni 114 min ailənin ünvanlı sosial yardım aldığını diqqətə çatdırmışdır. Əhalinin məşğulluğu istiqamətində dövlət siyasətinin ardıcıl həyata keçirilməsi nəticəsində 9 ayda ölkədə 87 min yeni iş yerinin açıldığını, bunun da 67 mininin daimi olduğunu deyən cənab İlham Əliyev qazanılan uğurları ölkəmizin müstəqil siyasət aparması və Azərbaycanda sabitliyin və təhlükəsizliyin təmin olunması, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi ilə əlaqələndirmişdir.

Cənab Prezident nitqində bu il ölkəmizin tranzit imkanlarının genişləndirilməsi üçün əlamətdar hadisələrin baş verdiyini, Çindən Azərbaycana ilk konteyner qatarının gətirildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan hissəsinin tikintisinin başa çatdığını bildirmiş, "Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı bu ilin 9 ayında xeyli iş görüldüyünü, "Şahdəniz-2" yatağının işlənməsi, TANAP layihəsinin icrası ilə bağlı ciddi addımların atıldığını diqqətə çatdırmışdır.

Ordu quruculuğu ilə bağlı ölkədə mühüm işlərin görüldüyünü, bu sahənin gələn il də prioritet olacağını, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin bundan sonra da ardıcıl həyata keçiriləcəyini vurğulayan cənab İlham Əliyev təmas xəttində Azərbaycanın tam üstünlüyə mailk olduğunu, düşmənin bütün təxribatlarının qarşısının alındığını, ötən ay təmas xəttində düşmənin təxribat qrupunun məhv edildiyini, onların ağır itkilər verdiyini bildirmişdir. "Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır", - deyən Prezident İlham Əliyev Ermənistandakı kriminal diktatura rejiminin Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olması ilə bağlı verdiyi bəyanata toxunaraq bildirmişdir ki, dünya birliyi və beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. "Bu gərgin psixoloji durumda verilən bəyanat Ermənistan rəhbərliyini ifşa və biabır edir", - deyən dövlətimizin başçısı xunta rejimindən bundan artığını gözləməyin mümkün olmadığını diqqətə çatdırmış, Azərbaycanın bu gün iqtisadi və siyasi sahədə güclü ölkə olduğunu, bizim iştirakımız və razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilmədiyini qeyd etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ilin 9 ayında Qəbələ rayonunda da sosial-iqtisadi sahədə işlər uğurla davam etdirilmişdir.

İlin əvvəlindən iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 149.725 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 1.894 min manat, yaxud 14,2 faiz, kənd təsərrüfatında 2.695 min manat, yaxud 5,6 faiz, nəqliyyatda 89 min manat, yaxud 3,5 faiz, rabitədə 176 min manat, yaxud 27,2 faiz, ticarətdə 457 min manat, yaxud 1,9 faiz artmışdır.

**(Ardı 4-cü səhifədə).**